# Yeni Azərbaycan Partiyası böyük və şərəfli yollarda

## Aqiyə NAXÇIVANLI, Azərbaycan Respublikası Milli Məclisinin üzvü

***Hörmətli Səbuhi müəllim!***
***Əziz konfrans iştirakçıları!***

Demək olar ki, Qəbələdə sizinlə görüşüm xeyli bundan əvvəl olmuşdur. Lakin o vaxtdan fərqli olaraq bu gün bir daha belə gözəl, ən müasir, hətta çox şəhərlərdə belə misli olmayan bir mədəniyyət mərkəzinin salonunda görüşürük. Qəbələdə ötən bir il ərzində yeniliklər təkcə bu mədəniyyət mərkəzi ilə bitmir. Rayon həqiqətən çox sürətlə inkişaf edib, gözəlləşib, firavanlaşıb. Ona görə də şəhərin inkişafı ilə tanışlıqdan, sizinlə bu möhtəşəm salonda görüşdən çox məmnunluq hissi duyuram və hamınızı salamlayıram.



Doğma vətənimiz Azərbaycanın inkişaf dinamikası Qəbələnin timsalında da aydın nəzərə çarpır. Müstəqil Azərbaycan dövlətimiz indi təkcə keçmiş sovetlər birliyi tərkibindən ayrılan respublikalar arasında, başqa sözlə desək, MDB məkanında deyil, bütün dünyada lider dövlətə çevrilməkdədir. Bir reallıqdır ki, ölkəmiz hər bir sahədə çox sürətlə inkişaf etmiş və etməkdədir. Bu inkişafın hamısı ümummilli lider Heydər Əliyevlə bağlıdır. O, hələ sağlığında ikən sanki Azərbaycan adlı «lokomotivi» hazırlayıb enişə doğru buraxmışdı. Bu «lokomotiv» sürətlə irəliləyir. Dünyada əvvəllər Amerikanın, Yaponiyanın və bir sıra güclü dövlətlərin inkişaf sürətindən danışılırdı. İndi bütün dünya insanlarının dilində inkişafın Azərbaycan modeli səslənir. Bu, çox fəxr edilməli bir məsələdir.

Hazırda Amerika konqresmenlərinin bir qrupu Bakıdadır. Onlarla söhbət zamanı Azərbaycanda son iyirmi ildə əldə edilən uğurlara, özü də müharibə şəraitində olan bir ölkənin qazandığı uğurlara öz heyrətlərini gizlədə bilmirlər və bu ölkəni indiyə qədər tanımadıqlarından heyfsiləndiklərini söyləyirlər.

Buradakı çıxışlarda Qəbələnin turizm bölgəsi olduğu da səsləndi. Lakin Qəbələ təkcə turizm bölgəsi deyildir, həm də güclü ziyalılar diyarıdır. Rayonda ziyalıların sayı da xeyli artıb, insanların sosial təminatı, həyat tərzi, dünyagörüşü, həyata real baxışı, bir sözlə, intellekt səviyyəsi xeyli yüksəlib. YAP respublika qurultayına bu gün Qəbələdən təkcə 5 nəfər deyil, indicə söylədiklərimiz baxımından onlarla ziyalı seçmək olar. Lakin qurultaya nümayəndə seçimi üçün müəyyən hədd vardır. Bu baxımdan yəqin ki, bizimlə razılaşarsınız.

Mən əminəm və inanıram ki, qəbələlilər son illərdə qazanılan uğurları daha da artıracaq, cənab Prezidentimiz İlham Əliyevin ulu öndərimiz Heydər Əliyevlə başlanan sosial-iqtisadi siyasətin həyata keçirilməsini əzmlə dəstəkləyəcək, müdafiə edəcək və bu yolda Prezidentin ətrafında daha sıx birləşəcəklər.

## Vüqar RƏHİMZADƏ, YAP siyasi şurasının üzvü, «İki sahil» qəzetinin redaktoru

***Hörmətli konfrans iştirakçıları!***

İcazə verin, Sizi bugünkü konfrans münasibətilə YAP siyasi şurasının bütün üzvləri adından təbrik edim, fəaliyyətinizdə sizə yeni-yeni uğurlar arzulayım.

Zəmanəmizin ən layiqli partiyası olan Yeni Azərbaycan Partiyası 1992-ci ilin payızında tarixi zərurətdən yaranmışdır. Bu partiya yarandığı 21 ilə yaxın ərzində respublikamızın ictimai-siyasi həyatında, o cümlədən Azərbaycan xalqının yaşayış səviyyəsinin yüksəldilməsində, elm, səhiyyə, mədəniyyət, quruculuğunun inkişafında və Azərbaycan dövlətinin müstəqilliyinin qorunub saxlanılmasında çox mühüm rol oynamışdır.



Məlum olduğu kimi 1991-1993-cü illərdə Azərbaycan öz müstəqilliyini bərpa etmişdi. Bu dövrdə ölkənin qarşısında həlli vacib çoxlu sayda problemlər və vəzifələr dururdu. O vaxtkı rəhbərlik ağır və mürəkkəb şəraitdə ölkədə yaranmış problemlərin demək olar ki, heç birini aradan qaldırmaq üçün lazımi siyasət yeridə bilmədi, ölkədə cərəyan edən anarxiya, xaos baş alıb gedirdi, az qala Azərbaycan parçalanırdı, qarşıdurma yaranırdı. Belə ağır və mürəkkəb bir vəziyyətdə Yeni Azərbaycan Partiyasının yaranması zərurəti meydana çıxdı. Ulu öndər Heydər Əliyevin təşəbbüsü ilə belə bir partiya yarandı. Ulu öndər Heydər Əliyev xalqın istək və arzusu ilə ikinci dəfə Azərbaycanda siyasi hakimiyyətə qayıtdı. Onun uzaqgörən siyasəti nəticəsində ölkədə yaranmış xaotik vəziyyət ləğv edildi, siyasi sabitlik, əmin-amanlıq bərqərar olundu. Artıq xalqla hakimiyyətin arasında vəhdət çox güclüdür.

Azərbaycanın ən təlatümlü dövründə yaranan YAP fəaliyyət göstərdiyi illər ərzində çox zəngin bir həyat yolu keçmişdir. Yaranan tarixdən bəri YAP özünü ölkənin siyasi taleyində həlledici rol oynamaq qüdrətinə malik olan vahid siyasi qüvvə kimi təsdiq etmişdi.

Hazırda Azərbaycanın iqtisadi inkişafının yüksələn xətlə davam etdirilməsi, əhalinin sosial şəraitinin yaxşılaşdırılması, genişmiqyaslı quruculuq işlərinin aparılması partiyanın düzgün siyasətinin məntiqi nəticəsidir. Bu sahədə Qəbələdə də görülən işlər, qazanılan uğurlar hamımızı ürəkdən sevindirir. Son vaxtlar bu rayonda bir sıra mühüm emal müəssisələri, inzibati binalar, yaşayış evləri, idman stadionları, turizm obyektləri, Beynəlxalq hava limanı inşa edilərək istifadəyə verilmişdir. Təhsil, səhiyyə, mədəniyyət müəssisələrinin inkişafı üçün çoxsaylı işlər görülməsinin şahidiyik.

Bu gün fəxrlə deyə bilərik ki, YAP Heydər Əliyev siyasi kursunu uğurla həyata keçirən möhtərəm Prezidentimiz cənab İlham Əliyev kimi güclü və uzaqgörən liderə malikdir. Partiyamızın liderinin mübarizliyi, qətiyyəti, polad iradəsi hər bir partiya üzvü üçün örnəkdir, siyasi həyat məktəbidir.

Qarşıdan Prezident seçkiləri gəlir. Biz bütün partiya üzvləri İlham Əliyevin namizədliyini dəstəkləyir və ona alternativ görmürük.

**(Əvvəli 3-cü səhifədə).**

# YAP Qəbələ Rayon Təşkilatının hesabat məruzəsi

Yeni Azərbaycan Partiyasının rayon təşkilatı rayon icra hakimiyyəti ilə birlikdə müntəzəm olaraq rayonda milli azlıqlar arasında iş aparır, onların kompakt halda yaşadığı yerlərdə görüşlər keçirir, problemlərinin həlli ilə yaxından məşğul olur. YAP sıralarına qəbul sahəsində də rayonda yaşayan bütün etnik qruplar nəzərə alınır.

Bu gün iqtidarda olan Yeni Azərbaycan Partiyasının bütün fəaliyyəti ölkəmizin siyasi və iqtisadi cəhətdən yüksəlməsinə, xalqın rifah halının yaxşılaşdırılmasına yönəlmişdir. Rayonumuzda iqtisadiyyatın surətli inkişafı, işsizlik probleminin aradan qaldırılması və nəticədə xalqın rifah halının yüksəldilməsi üçün başlanmış işlər VIII konfransdan keçən dövr ərzində daha da surətlənmişdir.

Son bir il ərzində rayonumuzun ictimai -siyasi həyatında da baş verən əsas əlamətdar hadisə isə Azərbaycan Respublikasının Pirezidenti, Yeni Azərbaycan Partiyasının sədri cənab İlham Əliyevin Qəbələyə gəlməsidir. Rayon ictimayyətinin nümayəndələri ilə keçirdiyi görüşdə dövlət başçısı demişdir: «Bu gün Qəbələ ölkəmizin mədəniyyət və turizm mərkəzlərindən birinə çevrilmişdir. Bakıdan və digər başqa ölkələrdən buraya gələnlərin sayı getdikcə artır. Turizmin inkişafı gələcəkdə yəqin ki, Qəbələ rayonunun iqtisadi inkişafının müəyyən faizini öz üzərinə götürəcəkdir».

Ölkə başçısının rayonumuza gəlməsi, Qəbələ barədəki fikirləri rayon əhalisində, eləcə də Yeni Azərbaycan Partiyasının üzvləri arasında böyük əhval-ruhiyyə və gələcəyə inam yaratmışdır.

Rayonumuz bu gün böyük tikinti meydançasını xatırladır. Tikilməkdə olan çoxmərtəbəli yaşayış evləri, sosial obyektlər və parklar rayonumuza yeni görkəm verir. Bütün bu qeyd etdiyimiz işlər çoxsaylı insanların iş yeri deməkdir. Bu gün fəxrlə demək olar ki, Qəbələdə işsizlik problemi artıq geridə qalmışdır. Bu da iqtidar partiyası olan Yeni Azərbaycan Partiyasının hesabat dövründə qazandığı uğurlardan biridir.

Hörmətli konfrans iştirakçıları.

Respublikamızın həyatında ən mühüm siyasi hadisə olacaq 2013-cü il 16 oktyabr tarixində keçiriləcək Prezident seçkilərinə hazırlıq ərəfəsindəyik. Rayonumuzda Prezident seçkilərinin şəffaf və demokratik keçirilməsi üçün hər cür şərait yaradılmaqdadır. YAP Qəbələ Rayon Təşkilatı partiyanın Mərkəzi Aparatının tədbirlər planına uyğun olaraq seçkilərə geniş hazırlıq işləri görür. 116 saylı Qəbələ və 117 saylı Oğuz—Qəbələ seçki dairələri üzrə olan seçicilərin tərkibi partiyanın «seçicilər proqramı»nda dəqiqləşdirilərək mərkəzi bazaya köçürülmüşdür. Bununla yanaşı, YAP Qəbələ Rayon Təşkilatı yanında seçki qərargahının rayon şöbəsi də yaradılmışdır. Son bir ay ərzində qərargah üzvlərinə və partiya fəallarına iki dəfə seminar treniqlər keçirilmişdir. Ərazi ilk partiya təşkilatları ilə məntəqələr arasında sıx əlaqə təşkil olunmuşdur. Prezident seçkisinə hazırlıq istiqamətdə partiyadaxili işlər davam etdirilir.

Yeni Azərbaycan Partiyasının Prezidentliyə yekdilliklə namizəd irəli sürəcəyi YAP-ın sədri cənab İlham Əliyevin ölkədə nufuzuna təsir edə biləcək heç bir alternativ qüvvə yoxdur.

Çıxışımı yekunlaşdıraraq partiyamızın ətrafında sıx birləşən rayonumuzun bütün siyasi həmfikirlərini 16 oktyabr 2013-cü ildə keçiriləcək Prezident seçkilərində yüksək fəallığa səsləyirəm.